Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1, 2019, **s. 129-133**
Азербайджанский Государственный Педагогический Университет Актуальные проблемы музыкальной науки, культуры и образования №1, 2019, **c. 129-133**
Azerbaijan State Pedagogical University Actual problems of the science, culture and education of music №1, 2019, **pp. 129-133**

UOT 378/03(476.6)

Yeganə Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi 68
E-mail: yeganememmedova.doc@gmail.com

UŞAQ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA KOLLEKTİVİN ROLU

Açar sözlər: *məktəbəqədər yaşlı uşaqlar, şəxsiyyətin formalaşması, uşaq kollektivi*

Uşaqların kollektivçilik hisslərini və birgə yaşayış adətlərinin inkişaf etdirilməsində aparıcı rol tərbiyəçiyə məxsusdur, o, öz nümunəsi və düşünülmüş metod və üsullar sistemi ilə uşaqları kollektivdə yaşamağa öyrədir, onların hisslərini zənginləşdirir və inkişaf etdirir. Tərbiyə sayəsində məktəbəqədər yaşın axırına yaxın uşaqlar məktəb kollektivində oyuna, əməyə və məşğələlərlə hazırlıqlı olurlar. Uşaq kollektivində ictimai həmrəylik, ictimai rəyə hörmət, yoldaşlıq və dostluq, yüksək ideya inamı, humanizm və s. kimi yüksək əxlaqi hisslərin formalaşmasına geniş imkan yaranır.

Егана Мамедова

РОЛЬ КОЛЛЕКТИВА В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ РЕБЕНКА

Ключевые слова: *дети дошкольного возраста, формирование личности, детский коллектив*

Ведущая роль в развитии коллективности и навыков совместного проживания принадлежит воспитателю. Он учит детей жить в коллективе собственным примером, продуманными методами и приемами, обогащая и развивая их чувства. При правильном воспитании, дети к концу дошкольного возраста будут готовы к играм, к труду и к учебе в школьном коллективе. В детском коллективе существует прекрасная возможность для формирования высоких моральных чувств, таких как социальная солидарность, уважение общественного мнения, дружба и высокие идеологические убеждения, гуманизм и так далее.

Yegana Mammadova

THE ROLE OF THE COLLECTIVE IN SHAPING OF CHILD PERSONALITY

Key words: *preschool-aged children, personality shaping, collective of children*

The leading role in the development of collectivity and skills of living together belongs to the teacher. He teaches children to live in a collective with his own example, thoughtful methods and techniques, enriching and developing their feelings. With the right upbringing, children will be ready for games, for work, and for learning in the school community by the end of preschool-age. In the collective of children there is an excellent opportunity for the formation of high moral feelings, such as social solidarity, respect for public opinion, friendship and high ideological convictions, humanism, and so on.

İnsanlar təcrid olunmuş şəkildə deyil, qruplarda, kollektivdə yaşayır və fəaliyyət göstərirlər. Ona görə də öz qrupunun hər bir üzvünün tərbiyəsində həmin qrupun, kollektivin rolu böyükdür. Məhz bu mənada uşaq kollektivinin böyüməkdə olan şəxsiyyətinin formalaşmasında rolunu qeyd etməmək olmaz. Kollektiv bir növ uşaq şəxsiyyətinin inkişafı üçün şərait və şərt rolunu oynayır.

Uşaq kollektivi öz üzvlərinə qarşı tərbiyələndirici funksiyanı yerinə yetirir.

Kollektiv öz üzvlərinə təsir edir, onlardan müvafiq davranış tərzinə əmə l etməyi tələb edir.

Kollektivin təqdiri və məzəmməti, sağlam tənqidi, işgüzar və ciddi tələbi öz üzvlərində şəxsiyyətin inkişafına təsir edir, qüsurların aradan qaldırılmasına sahib olur.

Məhz buna görə də müəllim və tərbiyəçilər uşaq şəxsiyyətinin formalaşmasında, o cümlədən onların əxlaq tərbiyəsində kollektivin bu cür imkanlarından istifadə etməyə çalışmalıdırlar. Düzgün təşkil olunmuş kollektiv yüksək tərbiyələndirici qüvvəyə malik olur. Kollektivçilik – yoldaşlıq, həmrəylik, məqsəd və hərəkət birliyidir. İnsan dünyaya fərd kimi gəlir, sosial mühitdə, kollektivdə şəxsiyyət kimi formalaşır. Uşaq dünyaya göz açandan insanların əhatəsində olur. Uşağın ilk kollektivi onun ailə mühitidir. Çoxuşaqlı ailələrdə böyüyən uşaq sonrakı dövrdə düşdüyü kollektivə tez alışır.

Kollektivin təqdiri və məzəmməti, sağlam tənqidi öz üzvlərində şəxsiyyətin inkişafına təsir edir, qüsurların aradan qaldırılmasına səbəb olur. Odur ki, müəllim və tərbiyəçilər uşaq şəxiyyətinin formalaşmasında kollektivin

imkanlarından istifadə etməyə çalışmalıdırlar. Düzgün təşkil olunmuş kollektiv yüksək tərbiyələndirici qüvvəyə malik olur.

Yaxşı təşkil edilmiş uşaq kollektivində ictimai həmrəylik, ictimai rəyə hörmət, yoldaşlıq və dostluq, yüksək ideya inamı, humanizim və s. kimi yüksək əxlaqi hisslərin formalaşmasına geniş imkan yaranır. Uşaq kollektivində yoldaşlıq və dostluq hissinin formalaşması üçün geniş imkanlar yaranır. Burada uşaqların bir-birinə qarşı həssaslığı, qayğıkeşliyi xüsusi yer tutur. Kollektiv möhkəm olduqda onun bütün normaları öz üzvlərinin normalarına çevrilir. Kollektiv üzvlərində yüksək ideya inamı yaranmış olur.

Onlarda *empatiya* (başqa adamların psixi halətlərini başa düşmək və onların dərdinə şərik olmaq qabiliyyəti) identifikasiya, mehribanlıq və s. kimi sosial kefiyətlər baş qaldırır [2,s.37].

Uşaq kollektivi əmək prosesində, uşaqlar tərəfindən onların gücü çatan tapşırığın və vəzifənin yerinə yetirilməsində tərbiyə edilir. Kollektiv qarşısında borc və məsuliyyət hisslərinin ilk rüşeymləri əməkdə yaranır. Uşaqların kollektivçilik hisslərini və bigə yaşayış adətlərinin inkişaf etdirilməsində aparıcı rol tərbiyəçiyə məxsusdur, o, öz nümunəsi və düşünülmüş metod və üsullar sistemi ilə uşaqları kollektivdə yaşamağa öyrədir, onların hisslərini zənginləşdirir və inkişaf etdirir. Tərbiyə sayəsində məktəbəqədər yaşın axırına yaxın uşaqlar məktəb kollektivində oyuna, əməyə və məşğələlərlə hazırlıqlı olurlar. Uşaqların kollektivlə ilk əlaqələrinin təşkili onda kollektivə marağın, yoldaşlarına rəğbətin yaranması və kollektivçilik tərbiyəsi üçün böyük əhəmiyyətə malikdir. Buna uşağın uşaq müssisələrində olduğu birinci günlərin düzgün təşkili nəticəsində nail olmaq mümkündür. Uşaq bağçasına gəliş kollektivdəki həyat, adət etdiyi şəraitin dəyişilməsi hər bir uşaq üçün müəyyən çətinlik yaradır. Bəzi uşaqlar isə, xüsusilə erkən yaşda, ailə həyatı şəraitində yaranmış, adət etdikləri mühitlə əlaqələr, münasibətlər sisteminin pozulması nəticəsində, bunu hətta xəstəlik kimi keçirirlər.

Uşaqların birləşməsi əsasən oyunda baş verir. Tərbiyəçi tərəfindən istiqamətləndirilən maraqlı, məzmunlu oyun uşaqları ümumi məqsəddə birləşdirir və kollektivçilik tərbiyəsi üçün ən yaxşı şərait yaradır. Uşaqları məqsəd birliyi, birgə hisslər yaxınlaşdırır [3,s.67]. Kollektivin təşkil olunmasının əvvəlində kollektiv əlaqələrin davamsızlığı, təşkiletmə bacarığının çatışmamazlığı ilə xarakterizə olunur. Uşaqlar oyunda rolları, işdə vəzifələri müstəqil bölüşdürə bilmirlər. Bu bacarıqları tərbiyə etmək uzun müddət tələb edilir. Tərbiyəçi ümumi işdə, oyunda, eləcə də gündəlik həyatlarında uşaqların özünü göstərmələrini izləyir, xatırlamaqla, xəbərdarlıqla, məsləhətlə onların davranışına istiqamət verir.

5-6 yaşlı uşaq yoldaşsız darıxır. Başqa uşaqlar qarşısında olan məsuliyyət hissi yaranır: öz yoldaşlarına qarşı xoşagəlməz hərəkət etdiyini başa salanda, uşaq özünü narahat hiss edir. Tədricən tərbiyənin təsiri ilə başqa

uşaqlarla oynamağın tək oynamaqdan daha şən keçdiyini, birlikdə daha tez və daha çox iş görmək mümkün dərk etmək qabiliyyətləri inkişaf edir, onlarda güzəştə getmək, razılaşmaq, kollektivə lazım olan müəyyən iş görmək, özünü saxlaya bilmək adətləri möhkəmlənir.

5-6 yaşına yaxın uşaq özünün bəzi hərəkətlərinin mənasını başa düşməyə qabil olur və öz yoldaşlarına qarşı münasibətini müəyyənləşdirir: "Başqalarından zorla almaq olmaz", "Oyuncaqları bölüşdürmək lazımdır" və s.

Əgər kiçik məktəbəqədər yaşlı uşaq birgə fəaliyyətə qabildirsə, böyük məktəbəqədər yaşlı uşaq razılaşmağı, rolları və vəzifələri bölüşdürməyi tələb edən məqsədyönlü kollektiv oyunlarda və əmək fəaliyyətində iştirak edir.

Bu yaşda uşaqlar arasında daha sıx dostluq münasibətləri də müşahidə edilir ki, həmin münasibətlər uşaqların mehribanlığı, qarşılıqlı meylləri əsasında yaranır. Dostluq uşağın mənəvi simasına müsbət təsir göstərir: dosta qayğı göstərmək, onun yaxşı hərəkətləri ilə fəxr etmək və çətinliklərdə ona kömək etmək arzusu əmələ gəlir, dostlar bir-birinə oyuncaqlar, şirniyyatlar verirlər. Böyük məktəbəqədər yaşda tərbiyənin təsiri ilə kollektivçilik və dostluq hissinin sonrakı inkişafı sürətlənir. Uşaqlar həssaslıq göstərir bir-birinə kömək edir, balacalara qayğı göstərir, zəif və xəstə yoldaşlarına diqqətlə yanaşır, aralarında baş verən narazılığı çox vaxt müstəqil həll edə bilirlər [1,s.96].

Kollektivçilik tərbiyəsi uçün məşğələlərdə də çoxlu imkanlar vardır. 5-6 yaşlı uşaqlara yoldaşlarının verdiyi cavabları tamamlamağı və düzəltməyi, yoldaşının edə bildiyini onun əvəzində etmək yox, məsləhətlə, göstərməklə kömək etməyi, bir-birinin işində müsbət cəhətləri görməyi öyrənirlər. Uşaqların nöqsanları görməyə meylli olduqlarını nəzərə alaraq, tərbiyəçi öz qiymətləri ilə onlarda nəzarət hissi, bir-birinə münasibətdə ədalətli olmağı tərbiyə edir. Uşaqlarda kollektivçilik, dostluq və yoldaşlıq əlamətlərinin tərbiyə edilməsi üçün ümumi fəaliyyət çox mühümdür. Bu işdə uşaqların ümumi mənafə uğrunda, birgə hisslərdə birləşdirilməsinə nail olunur.

Kollektivçilik tərbiyəsində uşaq ədəbiyyatı böyük rol oynayır. Müşahidə, bədii oxu, oxunan və baxılan haqqında söhbətlər, uşaqların hərəkətlərinin qiymətləndirilməsi kollektiv hissinin formalaşmasına və bu hisslərin uşaqların davranışında şüurlu surətdə təzahür etməsinə imkan yaradır.

Uşaqlarda kollektivçilik hissinin tərbiyəsinə musiqini dinləmək, xorla oxumaq və estetik tərbiyənin digər növləri faydalı təsir göstərir. Onlar uşaqların emosiyalarını, ümumi həyacanlarını zənginləşdirir və dərinləşdirir, kollektivçilik hisslərini tərbiyə edir. Gəzinti zamanı yaşlıların əməyini müşahidə edərkən tərbiyəçi, uşaqların diqqətini ətradakı həyatın elə faktlarına, elə tərəfinə cəlb edilməlidir ki, uşaqlar böyüklərin birlikdə işləməsini, ətrafdakılara xeyir vermək üçün çalışdıqlarını başa düşsünlər.

Uşaqlar qarşısında kiçik, lakin cəlbedici ümumi məqsədlər: maraqlı

ekskursiyalar, məşğələlər keçirilməsi, otağın yığışdırılması, bayrama hazırlıq, kukla paltarlarının yuyulması və bu işin uşaqlar tərəfindən həyata keçirilməsi kimi vaxt tələb edən daha mürəkkəb və daha uzaq məqsədlərin yerinə yetirilməsi əlverişlidir.

Problemin elmi yeniliyi: Bu məqalədə ilk dəfə olaraq uşaq şəxsiyyətinin formalaşmasında kollektivin rolu araşdırılmış, uşaqlarda kollektivçilik hissinin tərbiyəsində məşğələlərin, uşaq ədəbiyyatının, ekskursiyaların təşkil edilməsinin əhəmiyyəti və həlli yolları göstərilmişdir.

ƏDƏBİYYAT

1. Çələbiyev N. Z. Uşaq psixologiyası. Dərs vəsaiti. Bakı, 2005.
2. Əlizadə Ə. Uşaqlarda kollektivçilik hissinin tərbiyə edilməsi. Bakı, 1969.
3. Həsənov A.M. Məktəbəqədər pedaqogika. Bakı: Nasir, 2000.
4. Həsənov A.M. Pedaqogika. Bakı: Nasir, 2011.
5. Məmmədova A.M. Uşaq bağçasında beşyaşlıların məktəbə hazırlanması. Bakı: ADPU, 2007.

Məqalənin redaksiyaya daxil olma tarixi: 15.05.2019
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2019
Məqalənin çapa qəbul olunma tarixi: 12.07.2019
Məqalənı çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru Sabaqət Əliyeva
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.